TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

# Qeyri-formal və informal təhsilin tanınması

Vətəndaşların peşə ixtisasları üzrə qeyriformal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması

# Mündəricat


TKTA haqqında ........ 3
Fəaliyyət istiqamətlərimiz ........ 4
Qeyri-formal və informal təhsilin tanınması barəsində ümumi məlumat ........ 5
Qiymətləndirilməsi və tanınması aparılan peşə ixtisasları ........ 7
Tanınma prosesinin mərhələləri ........ 8
Sertifikat və diplomun fərqi ........ 12
Üstünlüklər ........ 14
İllər üzrə statistik məlumatlar ........ 15
2021-ci il ........ 16
2022-ci il ........ 17
2023-cü il ........ 19
2024-cü il ........ 21
Tərəfdaşlarımız ........ 25

## TKTA haqqında

- Azərbaycan Respublikası Prezidentinin 29.12.2019-cu il tarixində imzaladığı müvafiq Fərmana əsasən, Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsi Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu olan Təhsildə Keyfiyyət Təminatı Agentliyinə çevrilmə yolu ilə yenidən təşkil edilmişdir. Agentlik Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi sahəsində peşəkar və mütəxəssis qurumdur.



## Fəaliyyət istiqamətlərimiz

TKTA

- Təhsil müəssisələrinin institusional və proqram akkreditasiyasının həyata keçirilməsi;
- Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması;
- Qeyri-formal və informal təhsilin tanınması;
- Təlim və metodiki dəstək xidmətlərinin təşkil edilməsi.

# Qeyri-formal və informal təhsilin tanınması barəsində ümumi məlumat

**Qeyri-formal təhsil** - formal təhsil mühitindən kənarda baş verən yəni, müxtəlif kurslarda, dərnəklərdə, təlim və ya fərdi məşğələlərdə, o cümlədən iş mühitində əldə edilən bilik, bacarıq və səriştələrin məcmusudur.

**İnformal təhsil** - özünütəhsil yolu ilə biliklərə yiyələnmənin formasıdır. Maraq dairəmizə, ehtiyaclarımıza uyğun daha çox təcrübə yolu ilə əldə edilən bilik və bacarıqları əhatə edir.

Qeyri-formal və informal təhsilin tanınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 2020-ci il tarixli 279 nömrəli qərarı ilə təsdiq edilmiş «**Qayda**» əsasında tənzimlənir.

Ölkəmizdə qeyri-formal və informal yollarla əldə edilmiş bilik bacarıq, təcrübə və səriştələrin tanınması üzrə ilk mexanizmin icrasını 2020-ci ildə həyata keçirib.

Hazırda qiymətləndirmə və tanınma 26 peşə ixtisası üzrə həyata keçirilir.

Bu günə qədər 550-dən çox vətəndaşa peşə ixtisasını təsdiq edən sənəd təqdim olunub.

Tanınması həyata keçirilən peşə ixtisaslarının sayının 2026-cı ilin sonuna qədər 35-ə çatdırılması nəzərdə tutulub.

# Qiymətləndirilməsi və tanınması həyata keçirilən peşə ixtisasları

1. İstehsalat və texniki xidmətlər üzrə

- Avtomobil mühərriklərinin yığıcısı
- Avtomobillərin təmiri çilingəri
- Elektrik qaz qaynaqçısı
- Plastik boru qaynaqçısı
- İnşaat ustası
- Mənzil təsərrüfat xidməti üzrə mütəxəssis

2. Kənd təsərrüfatı və ictimai iaşə üzrə

- Aşpaz
- Qənnadçı, şirniyyatçı
- Turizm sahəsində iaşə üzrə mütəxəssis
- Bağban dekorator
- Baytar texniki
- Bitkiçilik mütəxəssisi
- Heyvandarlıq mütəxəssisi

3. Məişət xidmətləri və kommersiya sahələri

- Bərbər
- Bərbər-vizajist-manikürçü
- Dayə
- Əməliyyatçı mühasib
- Qida və qeyri-qida malları satıcısı, nəzarətçixəzinədar
- Kargüzar
- Mühafizəçi

4. Texnologiya, dizayn və sənətkarlıq üzrə

- Kompüter operatoru
- Poliqrafiya üzrə dizayner
- Tikiş avadanlıqlarının operatoru, tikişçi
- Dərzi
- Zərgər

# Tanınma prosesinin mərhələləri

**Mərhələ 1: İlkin müraciət**

Ərizəçinin əvvəlki təhsil məlumatları və iş təcrübəsi yoxlanılır. Namizədlərdən ümumi orta təhsilə və 4 illik müvafiq iş təcrübəsinə və ya tam orta təhsil və 2 illik müvafiq iş təcrübəsinə malik olması tələb olunur.



# Tanınma prosesinin mərhələləri

### Mərhələ 2: Nəzəri imtahan

Ərizəçiyə peşə ixtisasının hər bir modul üzrə 10 sual təqdim olunur. Ümumi sualların ən az 50%-ni düzgün cavablayan namizədlər praktiki imtahan mərhələsinə dəvət olunurlar.



# Tanınma prosesinin mərhələləri

**Mərhələ 3: Praktiki imtahan**

Ərizəçilərin praktiki bacarıqları, səriştələri və iş təcrübəsi qiymətləndirilir. Qaydalara əsasən ərizəçilər tapşırıqların 50%-ni uğurla yerinə yetirilməlidir.



# Tanınma prosesinin mərhələləri

**Mərhələ 4: Mükafatlandırma, sertifikat və diplom**

Həm nəzəri həm də praktiki imtahanı uğurlu tamamlayan namizədlər müvafiq peşələri üzrə sertifikat və ya diplom əldə edə etmiş olurlar. Həm sertifikat həm də diplom müvafiq ixtisas üzrə əmək fəaliyyətinə başlamaq hüququ verir



## Sertifikat və diplomun fərqi




Müvafiq ixtisas üzrə təhsil proqramının (kurikulumun) ayrıca hissəsi olan modul təlimi üzrə müvəffəqiyyətlə imtahandan keçmiş ərizəçiyə – sertifikat təqdim edilir.

# Sertifikat və diplomun fərqi




Müvafiq ixtisas üzrə təhsil proqramının (kurikulumun) bütün modulları üzrə müvəffəqiyyətlə imtahandan keçmiş və sertifikatlar almış ərizəçiyə – **diplom** təqdim edilir.

## Üstünlükləri

- Uzunmüddətli təlimlərdə iştirak etmədən sadəcə qiymətləndirmə imtahanlarında iştirak edərək peşə ixtisasınıtəsdiq edən sənəd əldə etmək imkanı;
- Fəaliyyət sahəniz üzrə yerli və beynəlxalq səviyyəli ekspert və sahibkarlarla tanışlıq imkanı;
- Peşəkar kadrlar bazasında yer alma imkanı;
- Əmək fəaliyətinə başlamaq hüququnun əldə edilməsi;
- Peşə təhsili pilləsinin növbəti səviyyəsində təhsilini davam etdirmək imkanı.





# İllər üzrə statistik məlumatlar

2021-ci ildə 5 peşə ixtisası üzrə qiymətləndirmə və tanınma həyata keçirilib. Qiymətləndirmə prosesində iştirak edən vətəndaşların bilik və bacarıqları dəyərləndirilib, nəticədə 29 nəfər peşə ixtisasını təsdiq edən sənəd əldə edib.

Bundan əlavə, əlilliyi olan qadınların məşğulluğunu dəstəkləmək məqsədilə xüsusi layihə həyata keçirilib. Layihə çərçivəsində onların əmək bazarına çıxış imkanları genişləndirilib, yeni bacarıqlar qazanmaları üçün dəstək göstərilib.

**Əlilliyi olan qadınların məşğulluğuna dəstək layihəsi**

- Maliyyə dəstəyi: «PASHA Holding» MMC
- Layihənin əhatə etdiyi ixtisas(lar): Qənnadçı, şirniyyatçı
- Layihənin məqsədi: Əlilliyi olan qadınların əmək bazarına çıxış imkanlarının genişləndirilməsi.

2022-ci ildə qiymətləndirmə və tanınma prosesi ümumilikdə 12 peşə ixtisasını əhatə edib, onlardan 7-si yeni ixtisas olub. Nəticədə 148 vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib. Bundan əlavə, aztəminatlı qruplardan olan vətəndaşlar üçün təhsildə bərabərliyi təşviq edən və Qarabağa qayıdışı dəstəkləyən layihələr həyata keçirilib.

## Aztəminatlı qruplardan olan vətəndaşlar üçün təhsildə bərabərlik layihəsi

**Maliyyə dəstəyi**:
«PASHA Holding» MMC

**Layihənin məqsədi**: Sosial və iqtisadi cəhətdən dəstəyə ehtiyacı olan vətəndaşların imkanlarının artırılmasına və onların inteqrasiyasına dəstəyin göstərilməsi

## Qarabağa qayıdış layihəsi

**Maliyyə dəstəyi**:
«BP Azerbaijan» şirkəti

**Layihənin məqsədi**: Məcburi köçkünlər üçün özünüməşğulluq imkanlarının genişləndirilməsi və onların iqtisadi inteqrasiyasının təşviqi

2023-cü ildə qiymətləndirmə və tanınma prosesi ümumilikdə 20 peşə ixtisasını əhatə edib, onlardan 8-i yeni ixtisas olub. Nəticədə 171 vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib. Bundan əlavə, bölgələrdə yaşayan qadınların kvalifikasiyalarının tanınmasını təşviq edən "Peşəkar qadınlar" layihəsi həyata keçirilib.




**«Peşəkar qadınlar» layihəsi**

**Maliyyə dəstəyi**: «PASHA Holding» MMC

**Layihənin əhatə etdiyi ixtisas(lar)**: Bağban dekorator, bitkçilik mütəxəssisi, qənnadçı şirniyyatçı və bərbər peşə ixtisasları üzrə imtahanlar keçirilib.

**Layihənin məqsədi**: Bölgələrdə yaşayan qadınların kvalifikasiyalarının tanınması

**Layihənin əhatə etdiyi bölgələr**: Lənkəran, Astara, Siyəzən, Şabran, Göyçay və İsmayıllı rayonları

2024-cü ildə qiymətləndirilmə və tanınma 26 peşə ixtisasını əhatə edib, bunlardan 6-ı yeni peşə ixtisası olub. Yekunda 189 vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib. «Peşəkar qadınlar II» layihəsi və «Sənətin varsa, sənədin olacaq!» layihəsi həyata keçirilib.










**Sənətin varsa, sənədin olacaq!**

**Maliyyə dəstəyi**: «BP Azerbaijan» şirkəti

**Layihənin məqsədi**: Neft və qoz boru kəmərləri keçən bölgələrdə yaşayan əhalinin sosial müdafiəsinin gücləndirilməsi

**Layihənin yekunu**: 55 nəfər vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib və layihənin icrası davam etməkdədir







**Peşəkar qadınlar II**

**Maliyyə dəstəyi**: «PASHA Holding» MMC

**Layihənin məqsədi**: qadınların peşə ixtisasını təsdiq edən sənədlə təmin olunmalarına dəstək

**Layihənin yekunu**: 105 nəfər vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib.



**Norm Ustalar Klubu ilə layihə**

**Maliyyə dəstəyi**: «NORM» ASC

**Layihənin məqsədi**: Norm Ustalar Klubu üzvlərinin inkişafına töhfə vermək, onların məşğulluq imkanlarının artırılmasına şərait yaratmaq və sosial rifahı yüksəltmək

**Layihənin yekunu**: 21 nəfər vətəndaş peşə ixtisasını təsdiq edən sənəd əldə edib.

# TƏRƏFDAŞLARIMIZ

ACSA
AZERBAIJAN CULINARY SPECIALIST ASSOCIATION

PAŞA Holding

AZERBAIJAN SUPERMARKET

Bravo

KVET
Kulane Vocational Education and Training

bp
BP Azerbaijan

TOYOTA

GƏLƏCƏYƏ KÖRPÜ
BRIDGE TO THE FUTURE

MARSOL GROUP

modepoint

LANKARAN SPRINGS
WELLNESS RESORT

TexnoLab

Pastry School
Honey Cake Studio

Beauttech

bağçam
UŞAQ BAĞÇALARI ŞƏBƏKƏSİ

TURAN BORFİT

EXCELSIOR
HOTEL & SPA
BAKU

TET
INTERNATIONAL DEVELOPMENT

GMİB

NORM

Gözəlliyə Xidmət Sahəsində Sahibkarlara Dəstək

Azərbaycan zərgərlər assosiasiyası

TKTA

Təhsildə Keyfiyyət Təminatı Agentliyi


tktaeduaz

tktaeduaz

tktaeduaz

tktaeduaz

TKTA

qfitt@tkta.edu.az

146-8

https://www.tkta.edu.az